**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) 90 illik yubileyi ilə bağlı təbrik**

Hər bir ölkənin inkişafı onun təhsil sisteminin inkişaf səviyyəsi ilə bilavasitə bağlıdır. Azərbaycanın uğurlu gələcəyini təhsilin inkişafında görən Ümummilli Liderimiz Heydər Əliyev məhz müasir təhsil sisteminin formalaşması üçün bir sıra mühüm addımlar atmış, ölkəmizin zəngin təbii sərvətləri insan kapitalının inkişafına yönəldilmişdir.

Ulu Öndərin bu siyasəti hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı tərəfindən həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində keyfiyyətcə yeni mərhələyə keçən təhsil sisteminin qanunvericilik bazası təkmilləşdirilir, bu sahədə standartlar yenilənir, təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılır, paytaxtda və regionlarda müasir təhsil müəssisələri tikilir, təhsil ocaqlarının maddi-texniki bazası gücləndirilir.

Azərbaycanın ali təhsil müəssisələri sırasında UNEC-in özünəməxsus yeri vardır. Ölkəmizdə sənaye, ticarət, maliyyə, statistika, vergi sistemi, marketinq, menecment kimi sahələrdə yüksək ixtisaslı kadrların hazırlanmasında müstəsna xidmətləri olan UNEC regionda iqtisad elmini dərindən öyrədən fundamental tədris mərkəzidir. Bu gün universitet beynəlxalq reytinq cədvəllərində öz mövqeyini qoruyub saxlamaqla inkişaf edir, yeni uğurlara imza atır.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyəti bir çox istiqamətlərdə elm və tədris mərkəzləri ilə qarşılıqlı fəaliyyətə əsaslanır və bu sahədə Agentlik UNEC-lə sıx əməkdaşlıq edir. Elmi yeniliklərin biznesə inteqrasiyası, innovativ təşəbbüslərin dəstəklənməsi, kiçik və orta biznes subyektlərinin tələbatına uyğun ixtisaslar üzrə təhsil proqramları və metodiki vəsaitlərin hazırlanması kimi sahələrdə əlaqələrimizin daha da inkişafı üçün geniş əməkdaşlıq platforması mövcuddur.

İnanırıq ki, UNEC qarşısına qoyduğu bütün hədəflərə nail olacaq, yaxın gələcəkdə tədqiqat universiteti kimi nəinki Azərbaycanda, həm də dünyada tanınmış ali təhsil ocaqlarından olacaqdır.

Sizi və rəhbərlik etdiyiniz qocaman təhsil ocağının bütün müəllim və tələbə heyətini Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) yaradılmasının 90 illik yubileyi münasibəti ilə təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayıram.

***Hörmətlə,***
***Azərbaycan Respublikasının***
***Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin***
***İdarə Heyətinin sədri Orxan Məmmədov***